

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 110 (23.272)

*15 iyun 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Milli Qurtuluş Gününün bəhrələri

### *Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yeni tədris kompleksi istifadəyə verilmişdir*





İyunun 14-də – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yeni tədris kompleksi istifadəyə verilmiş, fakültənin yaranmasının 20 illiyi qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yeni tədris kompleksinin istifadəyə verilməsi və fakültənin yaranmasının 20 illiyi münasibətilə tədbir iştirakçılarını, universitetin bütün professor-müəllim heyətini və tələbələrini təbrik edərək demişdir: Səhiyyənin inkişafı hər bir xalqın gələcəyinə xidmət edir. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə bu sahəni diqqətdə saxlamış, Azərbaycanda səhiyyə quruculuğu geniş vüsət almışdır. Bu gün ulu öndərin əsasını qoyduğu səhiyyə islahatları ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Müasir tələblər səviyyəsində qurulmuş Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə və Doğum mərkəzləri, Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Şəhər Poliklinikası, Ağciyər və Psixi Xəstəliklər dispanserləri, Duzdağ Fizioterapiya, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzləri, rayonlardakı mərkəzi xəstəxanalar, eləcə də kənd yaşayış məntəqələrində istifadəyə verilən tibb ocaqları muxtar respublika səhiyyəsini yeni inkişaf mərhələsinə çıxarmışdır. Hazırda Naxçıvanda 36 muxtar respublika, şəhər, rayon və kənd sahə xəstəxanaları, birlik, mərkəz və dispanserlər, eləcə də 107 feldşer-mama və tibb məntəqəsi, 84 həkim ambulatoriyası vasitəsilə əhaliyə yaşadıqları yerlərdə hərtərəfli tibbi xidmət göstərilir.

Qeyd olunmuşdur ki, müasir səhiyyə infrastrukturunun yaradılması və yeni xəstəxanaların istifadəyə verilməsi muxtar respublikada ixtisaslı tibbi kadrların hazırlanmasını zərurətə çevirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ümummilli liderimiz Heydər Əliyevin himayəsi ilə 1999-cu ildə fəaliyyətə başlayan Tibb fakültəsi böyük yol keçmiş, muxtar respublikada ixtisaslı həkim hazırlığının əsası qoyulmuşdur. Ötən 20 ildə fakültədə tələbələrin tədrisi üçün lazımi şərait yaradılmış, müasir xəstəxana istifadəyə verilmiş, muxtar respublikanın səhiyyə müəssisələrində auditoriyalar qurulmuşdur. 25 tələbə ilə fəaliyyətə başlayan fakültədə hazırda 474 tələbə təhsil alır ki, onlardan da 122-si xarici ölkə vətəndaşıdır. Bu da onu deməyə əsas verir ki, Tibb fakültəsinin kadr hazırlığı sahəsində beynəlxalq səviyyədə nüfuzu vardır. Yarandığı dövrdə fakültədə yalnız Pediatriya ixtisası üzrə həkim hazırlanırdısa, bu gün Tibbi profilaktika, Müalicə işi, Əczaçılıq və Stomatologiya ixtisasları üzrə həkim, eləcə də 24 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir. Ötən dövrdə fakültəni bitirmiş tələbələrdən bu gün səhiyyə müəssisələrində çalışanlar, ürək və digər cərrahi əməliyyatları uğurla həyata keçirənlər, həmçinin dünyanın bir çox ölkələrində də həkim kimi fəaliyyət göstərənlər var.

Ali Məclisin Sədri həkim hazırlığı sahəsindəki səmərəli fəaliyyətlərinə görə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin professor-müəllim heyətinə təşəkkür etmişdir.

Ali Məclisin Sədri demişdir: Səhiyyədə kadr hazırlığından danışarkən Naxçıvan Tibb Kollecinin fəaliyyəti də qeyd olunmalıdır. 2018-ci ildə müasir tədrisin tələblərinə uyğun qurulan kollecdə 8 ixtisas üzrə 700-dən artıq tələbə təhsil alır. Bu da səhiyyə müəssisələrinin orta tibb işçilərinə olan tələbatını ödəyir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir”.*** Həqiqətən də, təcrübə göstərir ki, peşəkar həkimlər olmadan səhiyyənin inkişafından və insan sağlamlığından danışmaq mümkün deyil. Həkim peşəsi şərəfli, bu peşəni öyrətmək isə ikiqat məsuliyyətdir. Ona görə də müəllimlər yaradılan müasir infrastrukturdan və maddi-texniki bazadan səmərəli istifadə etməli, tibbi təhsilin məzmunu daim təkmilləşdirilməli, təcrübi dərslərə və yeni təlim üsullarına üstünlük verilməlidir. Tələbələr onlar üçün yaradılmış şəraitdən düzgün istifadə etməli, hərtərəfli təhsil almalı, peşəkar həkim kimi yetişməlidirlər.



“Tibbi təhsilin məqsəd və vəzifələri sadəcə sistemli biliklərin verilməsi ilə məhdudlaşmamalıdır. Çünki həkim hazırlığında yalnız nəzəri biliklər kifayət etmir. Tələbələr muxtar respublikanın səhiyyə müəssisələrində və fakültənin xəstəxanasında təcrübələrə cəlb olunmalı, praktik dərslərə üstünlük verilməli, onlarda peşə vərdişləri formalaşdırılmalıdır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, muxtar respublikanın səhiyyə müəssisələrində, eləcə də Tibb fakültəsində ən son tibbi texnologiyalar və elektron təhsil tətbiq olunur. Bu səbəbdən də gələcəyin həkimləri müasir tibbi avadanlıqlardan istifadə vərdişlərinə də yiyələnməli, müayinə və müalicə prosesində yeni texnologiyaların tətbiqinə nail olmalıdırlar.



Ali Məclisin Sədri demişdir: Sabah 15 İyun Milli Qurtuluş Günüdür. Bu günlə əlaqədar ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk”.***

Ali Məclisin Sədri 15 İyun Milli Qurtuluş Günü münasibətilə tədbir iştirakçılarını, bütün muxtar respublika əhalisini təbrik etmiş, qarşıya qoyulan vəzifələrin icrasında və gələcək tədrisdə kollektivə uğurlar arzulamışdır.

Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov çıxış edərək demişdir ki, ali təhsil ocağında geniş quruculuq işləri aparılmış, yeni tədris korpusları, elmi kitabxana, konservatoriya, idman kompleksi, tələbə evi, sosial xidmət mərkəzi, qonaq evi, xəstəxana tikilmiş, müasir tədris şəraiti yaradılmışdır. Universitetin Tibb fakültəsi üçün yeni tədris kompleksinin istifadəyə verilməsi də aparılan quruculuq işlərinin davamıdır. Bu gün Naxçıvan Dövlət Universitetində 60 ixtisas üzrə bakalavr, 81 ixtisas üzrə magistr, 34 ixtisas üzrə doktorant hazırlığı aparılır. Hazırda universitetin əyani və qiyabi şöbələrində 5622 tələbə və 195 doktorant təhsil alır. Fəaliyyət göstərdiyi dövrdə Tibb fakültəsini 580 məzun bitirmişdir ki, onlardan da 46-sı xarici ölkə vətəndaşıdır. Fakültədə 4 kafedra, 8 kabinə və 5 laboratoriya fəaliyyət göstərir. Tibb fakültəsinin tələbələri dərslərini təkcə tədris binasında deyil, eyni zamanda Naxçıvan Muxtar Respublikasının müxtəlif xəstəxanalarında keçirlər. Saleh Məhərrəmov göstərilən qayğıya görə universitetin professor-müəllim heyəti və tələbələri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Universitet xəstəxanasının baş həkimi Elmar Rzayev çıxış edərək demişdir: “Mən Tibb fakültəsinin ilk məzunuyam. Tələbəlik illərindən dövlətimizin səhiyyə və təhsilə göstərdiyi qayğını hər addımda hiss edirdik. Universitet xəstəxanası tələbələrdə praktiki vərdişlərin formalaşmasına, onların həkimlik sənətinə yiyələnməsinə töhfə verirdi. Bununla yanaşı, hər il muxtar respublika xəstəxanalarında, eləcə də Türkiyə Respublikasında təcrübə keçirdik. Ali Məclis Sədrinin məzun olarkən bizimlə görüşü, verdiyi tövsiyələr gələcək fəaliyyətimizin əsasını təşkil etdi. Universiteti bitirdikdən sonra Azərbaycan Tibb Universitetində aspirantura təhsili alaraq tibb üzrə fəlsəfə doktoru elmi adına layiq görüldüm. Sonra fakültədə elmi-pedaqoji, eyni zamanda universitet xəstəxanasında həkimlik fəaliyyətinə başladım. Dünyanın 7 ölkəsində kurslarda olmuşam. 2015-ci ildə universitet xəstəxanası üçün müasir bina

*Ardı 2-ci səhifədə*





istifadəyə verildikdən sonra həmin xəstəxanada baş həkim kimi fəaliyyət göstərirəm. Bununla yanaşı, Tibbi klinik fənlər kafedrasında dosent vəzifəsində çalışıram. Tibb fakültəsinin məzunu kimi bunlar təkcə mənə yox, məzun olan bütün tələbələrə göstərilən rəhbər, atalıq qayğısıdır”. Elmar Rzayev 15 İyun Milli Qurtuluş Günü münasibətilə müəllim və tələbələr adından Ali Məclisin Sədrinə təbriklərini çatdırmış, tibbi kadrların hazırlanmasında daha səylə çalışacaqlarına söz vermişdir.

Tibb fakültəsinin Müalicə işi ixtisasının tələbəsi Bənövşə Qasımova minnətdarlıq edərək demişdir: “Muxtar respublikada yaradılan hərtərəfli təhsil infrastrukturundan mən də bəhrələnmişəm. Yaşadığım Kəngərli rayonunun Qarabağlar kəndindəki müasir məktəbdə hərtərəfli təhsil aldıqdan sonra 667 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisasına qəbul olundum. Yüksək bal toplayan tələbələrlə görüşdə Ali Məclis Sədrinin gənclərə verdiyi tövsiyələr gələcək həyat yolumuzun müəyyənləşdirilməsində, seçdiyimiz peşə üzrə ixtisaslı kadr kimi yetişməyimizdə mühüm rol oynamışdır. Bir həqiqəti diqqətinizə çatdırmaq istəyirəm. Tibb fakültəsinin tələbələri hər il yay-istehsalat təcrübəsini xarici ölkələrdə müxtəlif xəstəxanalarda keçirlər. Apardığım müşahidələr nəticəsində tam əminliklə deyə bilərəm ki, bu gün muxtar respublika xəstəxanalarındakı şərait, həkimlərin istifadə etdikləri avadanlıqlar həmin xəstəxanalarda yoxdur. Həmçinin muxtar respublikanın bütün səhiyyə müəssisələrinin qapısı tələbələrin üzünə açıqdır. Tədrisi başa vuran tələbələr həmin səhiyyə müəssisələrində işlə təmin olunurlar. Yaşadığım Qarabağlar kəndində müasir həkim ambulatoriyası istifadəyə verilmişdir. Mən də gələcəkdə öz kəndimdə həkim kimi fəaliyyətimi davam etdirmək arzusundayam”.

Ali Məclisin Sədri açılışı bildirən lenti kəsmiş, fakültədə yaradılan tədris şəraiti ilə tanış olmuşdur.

Bildirilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada elektron lövhə, proyektor və internetlə təmin edilmiş 20 auditoriya, kitabxana, dekanlıq, kafedralar üçün 8 otaq, rezidentura otağı, 96 yerlik konfrans zalı və texniki otaqlar vardır. Histologiya, anatomiya və mulyaj-simulyasiya kabinələri binanın birinci mərtəbəsində yerləşir. Histologiya kabinəsində 12 mikroskop tələbələrin istifadəsinə verilib. Elektron mikroskoplar daha kiçik ölçülü hissəcikləri təsvir etmək, böyütmək, elektron təsviri görünən təsvirə çevirmək imkanlarına malikdir. Anatomiya kabinəsində elektron lövhə və xüsusi proqram təminatı olan müasir “Vived” anatomiya dəsti quraşdırılmışdır. Bu da imkan verəcəkdir ki, tələbələr insan anatomiyasını 3D eynəklərdən istifadə etməklə daha detallı və vizual formada öyrənə bilsinlər.



Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi Kübra Cəfərova minnətdarlıq edərək demişdir: Muxtar respublikada əmin-amanlıq və inkişaf vardır. Bütün sahələrdə, o cümlədən təhsildə və səhiyyədə yeniliklər tətbiq olunur. Tibb fakültəsi üçün yaradılan bu şərait də tələbələrin hərtərəfli hazırlanmasına hesablanıb. Bu, gələcəyimizə göstərilən qayğıdır və müəllimlərin, həkimlərin məsuliyyətini artırır. Çalışacağıq ki, etimadı doğruldaq, daha səmərəli fəaliyyət göstərək.

Mulyaj-simulyasiya kabinəsi ilkin tibbi yardım, doğum-ginekoloji, uşaq və neanatoloji simulyatorlarla, eyni zamanda bir sıra patologiyaları əks etdirən mulyajlarla təchiz edilib. Müasir simulyatorlar üzərində şərti müayinə və əməliyyatların aparılması mümkündür. Fakültədə zəngin kitabxana da yaradılmış, 4 min tibbi tədris vəsaiti müəllim və tələbələrin istifadəsinə verilmişdir.

Ali Məclisin Sədri kitabxana fondunun zənginləşdirilməsi, xarici tibbi ədəbiyyatların tərcümə və nəşr olunması barədə tapşırıqlar vermişdir.

Zirzəmidə əczaçılıq, kimya, fiziologiya, stomatoloji texniki və mikrobiologiya laboratoriyaları, fitoterapiya, patologiya, sintetik kadavra və stomatoloji simulyasiya kabinələri yerləşir. Ölkəmizdə ilk dəfə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində fitoterapiya kabinəsi yaradılmışdır. Əczaçılıq ixtisası tələbələrinin fitoterapiya kabinəsində və əczaçılıq laboratoriyasında nəzəri biliklərinin möhkəmləndirilməsi üçün hərtərəfli şərait vardır. Burada təcrübələr aparmaq, yeni preparatlar hazırlamaq mümkündür. Süni iqlim mühiti yaradılmış fitoterapiya kabinəsində bitkilər, herbarilər, bitki məhsulları, bitkilərdən alınmış müxtəlif kimyəvi maddələr və hazırlanmış dərman vasitələri saxlanılır.

Ali Məclisin Sədri Əczaçılıq ixtisası tələbələrinin “Nəbatat” bağında və yeni istifadəyə verilən “İqlim otağı”nda təcrübə keçmələrinin, eləcə də muxtar respublikanın dərman bitkilərindən müxtəlif preparatların hazırlanmasında iştiraklarının əhəmiyyətini vurğulamış, tapşırıq və tövsiyələr vermişdir.

Patoloji anatomiya, mikrobiologiya, fiziologiya, kimya və əczaçılıq laboratoriyaları müasir texnoloji vasitələrlə təmin edilmişdir. Diş simulyasiya kabinəsində praktiki vərdişlər əldə etmək üçün 13 diş simulyatoru – fantom quraşdırılmışdır. Həmçinin xəstəxana binasında fakültə üçün yeni implantologiya kabinəsi yaradılmışdır. Diş texniki kabinəsində isə tələbələr müxtəlif diş maketləri üzərində işləmək imkanı əldə edəcəklər.

Stomatologiya ixtisasının müəllimi, stomatoloq-implantoloq Rauf Cəfərov minnətdarlıq edərək demişdir: Dövlətimiz həkimlərin fəaliyyəti üçün hərtərəfli şərait yaradır, əməyimizə yüksək qiymət verilir. Ölkə Prezidentinin 2019-cu il 11 iyun tarixli Sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif olunmuşam. Bu, bütün səhiyyə işçilərinin əməyinə verilən yüksək qiymətdir. İstər muxtar respublikanın səhiyyə müəssisələrində, istərsə də Tibb fakültəsində yaradılan şərait səmərəli fəaliyyət göstərməyə, ən əsası isə peşəkar həkimlərin hazırlanmasına imkan verir.

Tibb fakültəsinin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Muxtar respublikada səhiyyənin inkişafı sahəsində görülən işlər sırasında Tibb fakültəsinin yaranması mühüm yer tutur. Fakültənin məzunları səhiyyə müəssisələrinin həkim kadrlarına olan tələbatını ödəyir. Yaradılan tədris şəraiti həkim hazırlığının müasir tələblər səviyyəsində aparılmasına imkan verəcəkdir. Tibb fakültəsinin fəaliyyəti üçün yaradılan şərait ixtisaslı həkim hazırlığı ilə yanaşı, həm də insanlara göstərilən qayğıdır. Ona görə də müəllimlər məsuliyyət və tələbkarlıqlarını artırmalı, tədris avadanlıqlarından səmərəli istifadə olunmalıdır.

Tibb fakültəsinin müəllimləri Sabir Novruzov və Bəxtiyar Hüseynov kollektiv adından minnətdarlıq etmiş, həkim hazırlığında səylərini artıracaqlarını bildirmişlər.

96 yerlik konfrans zalında internetə çıxışı olan kompüter və proyektor quraşdırılmışdır.

Ali Məclisin Sədri kabinə və laboratoriyaların bundan sonra da yeni tədris avadanlıqları ilə təmin olunacağını bildirmiş, Tibb fakültəsi ilə muxtar respublikanın səhiyyə müəssisələri arasında onlayn tədris mərkəzinin qurulması və aparılan əməliyyatların auditoriyalarda birbaşa izlənilməsi barədə tapşırıqlar vermişdir.

Milli memarlıq üslubunda tikilən binanın həyətində də geniş abadlıq işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Milli Qurtuluş Günü münasibətilə konsert olmuşdur





Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir. Ölkəmizin və xalqımızın bugünkü xoş və firavan həyatı Milli Qurtuluşun bəhrələridir.

İyunun 14-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin Milli Qurtuluş Gününə və ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyinə həsr edilmiş konserti olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov konsertə baxmışdır.

Konsertdən əvvəl Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətləri misilsiz və əvəzsizdir. Ulu öndərin 1969-cu il iyulun 14-də ölkəmizdə birinci dəfə hakimiyyətə gəlməsi

*Ardı 3-cü səhifədə*

Azərbaycanın inkişaf və tərəqqi, 1993-cü il iyunun 15-də xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı isə Milli Qurtuluş tarixinə çevrilmişdir. 15 iyun və 14 iyul tarixləri Azərbaycan xalqının həyatında xilaskarlıq və dönüş günləridir. Qara Qarayev adına Azərbaycan Kamera Orkestrinin bugünkü konserti də əlamətdar tarixi günlərə – 15 İyun Milli Qurtuluş Gününə və ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyinə həsr olunmuşdur.

Natəvan Qədimova orkestrin dirijoru, Azərbaycan Respublikasının Xalq artisti Yalçın Adıgözəlova və rəhbərlik etdiyi kollektivə dəvəti qəbul edib Naxçıvana gəldiklərinə görə təşəkkürünü bildirmişdir.

Sonra konsert başlamışdır.

Azərbaycan Respublikasının Xalq artisti Fidan Hacıyeva, Əməkdar artistlər Anar Şuşalı, Gülyanaq Fərzəliyeva və Tural Nəcəfov



görkəmli bəstəkarlarımız Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Niyazinin, Tofiq Quliyevin, eləcə də Aqşin Əlizadənin, Nazim Quliyevin, dünya bəstəkarlarından Jorj Bizenin, Ernesto de Kurtisin əsərlərini, xalq mahnılarını məharətlə ifa etmişlər. Konsert alqışlarla qarşılanmışdır.

Ali Məclisin Sədri konsertdən sonra orkestrin üzvləri ilə görüşmüş, onları Milli Qurtuluş Günü və uğurlu konsert münasibətilə təbrik etmişdir.

Orkestrin dirijoru, Azərbaycan Respublikasının Xalq artisti Yalçın Adıgözəlov və Xalq artisti Fidan Hacıyeva Ali Məclisin Sədrinə bayram təbriklərini çatdırmış, onlara göstərilən diqqətə görə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri orkestrin üzvləri ilə xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Müstəqilliyimizin və dövlətçiliyimizin xilas günü

*Ümummilli lider Heydər Əliyev bütün həyatını canından çox sevdiyi xalqının xilasına, tərəqqisinə və xoşbəxtliyinə həsr edib. Bu mənada, 1993-cü il 15 iyun tarixindən ötən hər il ulu öndərimizin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri daha dərindən dərk olunur. Ümummilli lider Heydər Əliyev fərqli siyasi sistemlərdə millətinin qurtuluşuna nail olan yeganə dövlət xadimlərindəndir.*

Ötən əsrin 70-ci illərindən başlanan iqtisadi, milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı. Həmin dövrdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində əldə olunmuş uğurlar ulu öndərin gərgin əməyinin nəticəsidir.

Dahi şəxsiyyət Vətəni və xalqı naminə ən təhlükəli addımları belə, inamla atmışdır. 1987-ci ildə Moskvada olarkən təhdidlərə baxmayaraq, Sovet İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa verərək 20 Yanvar faciəsini törədənləri kəskin ittiham etməklə milli iradə, qətiyyətli və prinsipial mövqe, həqiqi vətənpərvərlik nümayiş etdirmişdir. Bu kəskin bəyanatdan sonra milli liderimizin Moskvada yaşaması mümkün olmadı. O, 1990-cı il iyulun 20-də Bakıya gəldi. Lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilmədiyindən iki gün sonra, iyulun 22-də doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir.

Ulu öndərimiz ötən əsrin 70-80-ci illərində Azərbaycanı böyük bəlalardan qurtararaq onu müstəqilliyə hazırlamışdırsa, 1990-cı ilin noyabr ayında Naxçıvanda dövlət müstəqilliyinin bərpası istiqamətində tarixi qərarlar qəbul edərək müstəqil dövlətçiliyin əsasını qoymuşdur. Ümummilli liderimizin muxtar respublikamızda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər təkcə Naxçıvanda deyil, bütün Azərbaycanda mühüm rol oynamışdır. Bu dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xalqımızın azadlıq məfkurəsinin reallığa çevrilməsi üçün ulu öndərin rəhbərliyi altında tarixi qərarlar qəbul etmişdir. Sovet İttifaqının saxlanılması üçün qanunsuz referendum muxtar respublikada keçirilməmiş, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə ümummilli liderin sədrliyi ilə Naxçıvan parlamentində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmışdır. Dünya azərbaycanlılarının həmrəyiliyinin əsasının qoyulması, blokada şəraitində yaşayan Naxçıvanın işğaldan xilas edilməsi, burada çoxşaxəli iqtisadi islahatların aparılması dahi rəhbər Heydər Əliyevin qətiyyəti və təşəbbüsü nəticəsində mümkün olmuşdu.

Dahi şəxsiyyət çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmış, muxtar respublikada milli dövlətçiliyin qurulması istiqamətində nəhəng işlər görülmüşdü. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ümummilli liderin rəhbərliyi ilə Naxçıvan inkişaf edir, cəmiyyət quruculuğu sahəsində qətiyyətli addımlar atılırdı. Azərbaycan xalqı belə cəsarətli, düşünülmüş və məqsədyönlü, ümummilli mənafelərə xidmət edən addımların ölkə miqyasında da atılmasını tələb edirdi. Çünki 1990-1993-cü illərdə Azərbaycanda baş verən hadisələr onu göstərdi ki, ölkəmizin nicatı Heydər Əliyev ideyalarında, Heydər Əliyev yolundadır.

Həmin dövrdə Azərbaycan 1991-ci ildə bərpa olunmuş müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Ölkəmizdə anarxiya və xaos hökm sürürdü. Xalq Cəbhəsi-Müsavat hakimiyyəti ölkəmizi dərin böhrana sürükləmişdi. Azərbaycan xalqı varlığının, ölkənin bütövlüyünün, yenicə qazanılmış müstəqilliyin qorunub saxlanılmasını istəyirdi. Ancaq mövcud hakimiyyət və onun rəhbərləri buna heç cür qadir deyildi. Ölkədə vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də Gəncədə qarşıdurma yaşanmış, qardaş qanı tökülmüşdü. Gəncədə baş verən hadisələrə də ilk dəfə iyunun 5-də ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi münasibət bildirmişdi.

Azərbaycan real olaraq parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Bir sözlə, qurtuluş Azərbaycanda qaçılmaz zərurətə çevrilmişdi. Bu qurtuluşu isə yalnız ümummilli liderimiz Heydər Əliyev kimi dahi şəxsiyyət həyata keçirə bilərdi.

1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmışdır. Bununla da, ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyulmuş və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir.

Ümummilli liderimizin xilaskarlıq missiyası onun Azərbaycanın taleyində uğurla yerinə yetirdiyi digər tarixi vəzifə – quruculuq missiyası ilə qoşadır. Bunların hər ikisi müəyyən tarixi mərhələdə Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün ifadəsi kimi çıxış etmiş, ölkənin həm mövcudluğunun, həm də inkişafının təminatı vəzifəsini yerinə yetirmişdir. Bu mənada, quruculuq missiyası xilaskarlıq missiyasının məntiqi davamı kimi qiymətləndirilə bilər.

Qurucu rəhbərin tarixi xidmətləri sayəsində Azərbaycan yenidən 1969-cu ildəki inkişaf yoluna qayıtmış, milli istiqlalımızın qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində misilsiz işlər görülmüşdür. Müdrik rəhbərin uzaqgörən siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu. Görkəmli dövlət xadiminin tarixi xidmətləri sayəsində Azərbaycanda iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunmağa başladı, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, hərtərəfli, möhtəşəm yüksəlişin baş verməsi ulu öndər Heydər Əliyevin fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir. Bir sözlə, 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev müstəqilliyimizin əsl xilaskarı, hər bir vətəndaşın böyük qayğıkeşi, hamisi, Azərbaycanın qurucusu kimi öz sağlığında xalqın qəlbində əbədi yer tutdu.

Ulu öndər Heydər Əliyevin adı bu gün Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz.

Ümummilli liderimiz müstəqil Azərbaycana rəhbərliyi dövründə xalqımızın min illərin sınağından çıxmış milli dəyərlərinə, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına, folkloruna həddən artıq bağlı olmaqla, onların olduğu kimi xalqa qaytarılması qayğısına qalmışdır.

Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olan Azərbaycançılıq ideyasını irəli sürməsi, milli birlik meyillərinin daha da dərinləşdirilməsidir. 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi milli həmrəyliyə nail olmaq amalının Azərbaycan dövlət siyasətinin tərkib hissəsinə çevrildiyini nümayiş etdirmişdir.

Ötən dövrün təhlili bir daha təsdiqləyir ki, Azərbaycanın inkişafında 15 İyun Milli Qurtuluş Günündən başlanan yeni mərhələnin alternativi yoxdur. Azərbaycan dövlətini labüd fəlakətlərdən, hərc-mərclikdən xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bunun nəticəsidir ki, Azərbaycan bu gün inkişaf edən dövlətlər sırasında öz layiqli yerini tutub.

Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçib. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirib. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilib.

Qurtuluşdan başlanan sürətli inkişaf yolu doğma Naxçıvanımızı müasirliyə qovuşdurub. Bunun ifadəsidir ki, Naxçıvan şəhəri ötən il üçün İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı seçilib, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu "Caspian European Club"un 2017-2018-ci illər üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq lider olub.

Artıq Naxçıvanda ərzaq və enerji təhlükəsizliyi tam təmin olunub. Torpaqlarımız etibarlı müdafiə olunur. 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər işğaldan azad edilib. Naxçıvanda həyata keçirilən uğurlu ekoloji siyasət nəticəsində bu gün muxtar respublikada yaşıllıqların sahəsi 20 faizə qədər artırılıb. Şəhərdə də, kənddə də müasir yol şəbəkəsi qurulub. Naxçıvanda məşğulluq təmin olunub, yeni xidmət və istehsal sahələrinin yaradılması iş yerlərinin açılmasına səbəb olub, məskunlaşma artıb. Muxtar respublikada dövlət gənclər siyasəti uğurla həyata keçirilir, gənc nəslin təhsil və tərbiyəsi qayğısına qalınır. Bu gün Naxçıvan gənci peşəkar mütəxəssis, ən əsası isə Vətənə və dövlətçiliyə bağlı əsl vətəndaş kimi yetişməkdədir. Təbii ki, bunların hamısı Milli Qurtuluş Gününün bəhrələridir.

Bir sözlə, müasir Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bu gün əldə etdiyi bütün uğurlara görə ulu öndərimizin 1993-cü ildə ali hakimiyyətə qayıdışına, Milli Qurtuluş Gününə borcludur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, bizim hamımız üçün müqəddəsdir. Ona görə ki, ötən əsrin 90-cı illərində başımızın üstünü almış təhlükənin sovuşmasına, milli dövlətçiliyimizin xilasına və bu gün müstəqil Azərbaycanda sabitlik, əmin-amanlıq şəraitində yaşamağımıza görə Milli Qurtuluş Gününə borcluyuq. Bu bayram bizim üçün bir də ona görə müqəddəsdir ki, o, ulu öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin 1969-cu ildə ölkəmizdə birinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın dirçəliş və çiçəklənmə dövrü kimi səciyyələnirsə, 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin yazılması ilə əlamətdardır. Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir".***

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində 15 İyun Milli Qurtuluş Günü ilə əlaqədar tədbir keçirilib



Tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov bildirib ki, Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etsə də, mövcud ictimai-siyasi böhran, dövlətlə xalq arasında yaranmış uçurum ölkəmizdə separatizmin baş qaldırmasına, Azərbaycanın parçalanmasına və müstəqilliyin itirilmə təhlükəsinin yaranmasına gətirib çıxarmışdı. Artıq Azərbaycanda qaçılmaz zərurətə çevrilən qurtuluşu isə Azərbaycan xalqının böyük dövlət xadimi, dünya şöhrətli siyasi xadim Heydər Əliyev kimi dahi şəxsiyyət bəxş etdi.

Bildirilib ki, ulu öndərin zəngin dövlətçilik təcrübəsi, qətiyyəti, uzaqgörənliyi sayəsində, 1993-2003-cü illər müstəqil Azərbaycanın Milli Qurtuluşdan başlanan intibahının birinci mərhələsinə çevrilmişdir.

Daimi Nümayəndəliyin rəhbəri çıxışının sonunda vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçib. Son illər Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Əlbəttə ki, bütün bunlar Milli Qurtuluş Gününün bəhrələridir.

Tədbir digər çıxışlar və bədii kompozisiya ilə davam etdirilib.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul edilmişdir

*2019-cu ilin iyun ayının ilk 15 günü ərzində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən bir sıra qərarlar qəbul edilmişdir.*

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 iyun tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi" təsdiq edilmişdir. Qərara əsasən Peşə təhsili müəssisəsində təhsil dövlət hesabına və (və ya) ödənişli həyata keçirilir.

Həmin tarixdə "Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi" təsdiq edilmişdir. Qərara görə, Ali təhsil müəssisəsinin büdcədənkənar mənbələrdən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir.

Eyni zamanda "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Qərar qəbul etmişdir. Bu Qayda Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi olan hər bir şəxsin əlavə təhsilinin istiqamətini, məzmununu, formasını, təşkilini və onlara müvafiq sənədin verilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən "Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi barədə" Qərar qəbul edilmişdir. Nümunəvi Nizamnaməyə əsasən orta ixtisas təhsili müəssisəsinin fəaliyyət istiqamətləri orta ixtisas təhsili proqramlarının həyata keçirilməsi, ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisəsinə qəbul olunanlar üçün orta ixtisas təhsili proqramları ilə yanaşı, tam orta təhsil proqramının da həyata keçirilməsi, eləcə də əlavə təhsil proqramlarının həyata keçirilməsindən ibarətdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

## Muxtar respublikada insan hüquqlarının etibarlı müdafiəsi daim diqqət mərkəzindədir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən hər il 18 iyunda ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.***

Ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimiz tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının müasir Konstitusiyası ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoymuşdur. "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirib.

Bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, insan hüquqlarının müdafiəsi istiqamətində də mühüm nailiyyətlər əldə olunmuşdur. Ölkə başçısının "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında" 2006-cı il 28 dekabr tarixli Sərəncamı və "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ölkəmizdə insan hüquq və azadlıqlarının davamlı inkişafına zəmin yaratmışdır.

Ölkəmizdə bu sahədə həyata keçirilən islahatlar Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da kompleks şəkildə davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2006-cı ildə muxtar respublikada insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və müstəqil məhkəmədənkənar alternativ hüquq müdafiə vasitəsi olan Müvəkkil təsisatı yaradılmışdır. Ötən dövrdə təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanılmış, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa edilmiş dəyişikliklərlə təsisatın səlahiyyətləri daha da artırılmışdır.

Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Ötən dövr ərzində muxtar respublikada Müvəkkil təsisatının fəaliyyəti təmin edilmiş, məhkumların hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə penitensiar xidmətin infrastrukturu təkmilləşdirilmiş, hər bir vətəndaşın öz konstitusion hüquq və qanunla qorunan mənafelərinin həyata keçirilməsi, o cümlədən əhalinin yüksəkkeyfiyyətli hüquqi yardımla təmin edilməsi məqsədilə vəkillik institutunun hüquqi statusu müəyyənləşdirilmiş və inkişaf etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin müxtəlif sosial qrupların hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görülür. Belə ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsil alması və cəmiyyətə inteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası cari ildə də bu kateqoriyadan olan uşaqların təhsilə cəlbinə, onların inklüziv və məsafədən təhsil imkanlarının genişlənməsinə, cəmiyyətə inteqrasiyasına əlverişli şərait yaratmışdır.

Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzinin, Uşaq Bərpa Mərkəzinin və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyət göstərməsi məhdud fiziki imkanlı şəxslərin müalicə və reabilitasiyasının təşkilində mühüm rol oynayır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması isə hərəkət qabiliyyəti məhdud olan şəxslərin təhsilə cəlbinə şərait yaratmışdır.

Muxtar respublikada qadın hüquqlarının müdafiəsi, o cümlədən qadınların məşğulluğunun təmin edilməsi, müvafiq peşəyə yiyələnməsi, fiziki qüsurlu qadınların cəmiyyətə inteqrasiya olunması üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu gün muxtar respublikada qadınlar digər sahələrlə yanaşı, dövlət idarəçiliyində, ictimai-siyasi həyatda da fəal iştirak edirlər. Qadınların əl işlərindən ibarət yaradıcılıq müsabiqələri, sərgi-satışlar təşkil olunur, mədəni-kütləvi tədbirlərdə onların sənət əsərləri nümayiş etdirilir.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada işsizliyin aradan qaldırılması, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində uğurlu tədbirlərin həyata keçirilməsi cari ildə də davam etdirilir. Belə ki, muxtar respublikada ailə təsərrüfatlarının yaradılması onların maddi rifah halının yüksəlməsinə yönəlmiş əsas tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması, "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın qəbul olunması müxtəlif təsərrüfat sahələrində çalışan ailələr üçün yeni imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikasında dövlət gənclər siyasəti bu gün uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həll edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi atılan mühüm addımlardandır. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensiallarının üzə çıxarılması, o cümlədən onların hüquq sahəsinə olan maraqlarının artırılması və gənclər arasında insan hüquq və azadlıqlarının təbliği məqsədilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşkilatçılığı ilə mütəmadi olaraq hüquq olimpiadaları və bilik yarışları, intellektual oyunlar həyata keçirilir.

Muxtar respublikada məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. 2008-ci ildə məhkumların və saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə müasir standartlara cavab verən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikamızda istifadəyə verilmişdir. 2016-cı ildə Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində yeni yaradıcılıq və istehsalat binası istifadəyə verilmiş, məhkumlara xalçaçılıq və misgərlik sənəti üzrə kurslar təşkil olunmuş, onların istehsalat sahəsində hazırladıqları əl işləri muxtar respublikada keçirilən müxtəlif sərgilərdə nümayiş etdirilmişdir.

Miqrantların hüquq və azadlıqlarının qorunması və təminatı da diqqət mərkəzində saxlanılmış, saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə 2016-cı ildə yüksək maddi-texniki təchizata malik Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrantların Saxlanılması Mərkəzi istifadəyə verilmişdir.

Ötən dövrdə milli mətbuatın yubileylərinin dövlət səviyyəsində qeyd olunması, 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının yaradılması, kütləvi informasiya vasitələrinin yeni internet saytlarının istifadəyə verilməsi və teleradio verilişlərinin internet üzərindən yayıma başlaması, 2018-ci ildə isə muxtar respublikanın ilk informasiya agentliyi olan "Nuhçıxan"ın və onun internet saytının yaradılması Ali Məclis Sədrinin mətbuata və kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğısının parlaq təzahürü olmaqla yanaşı, həm də ictimai tribuna kimi insan hüquqlarının təminatı sahəsində görülən işlərin davamıdır.

Muxtar respublikanın iqtisadi inkişafı, sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin rifah halının getdikcə yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə geniş imkanlar yaratmışdır. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı tərəfindən insan hüquq və azadlıqlarının etibarlı təmin edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılacaq, bu sahədə səmərəli hüquqi mexanizmlərin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## "Son zəng" tədbirləri keçirilib



*İyunun 14-də ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikanın ümumtəhsil müəssisələrində də "Son zəng" tədbirləri keçirilib.*

Muxtar respublikamızda "Son zəng" günü yüksək əhval-ruhiyyə ilə qeyd olunur, təhsil ocaqları ölkəmizin daha da qüdrətlənməsi naminə çalışmaq arzusunda olan, bu arzunu gerçəkləşdirmək üçün ali təhsil almağa tələsən şagirdləri uğurlayır. Hər ötən təhsil ilini yeni-yeni uğurlarla başa vuran məktəblərimiz daha böyük nailiyyətlər qazanmağa səy göstərir, yaradılan təhsil mühitindən daha səmərəli istifadə etməyə çalışır. Bu gün bilik məbədlərində yaradılan şərait, təhsil işçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, bir sözlə, muxtar respublikamızda insan kapitalına böyük önəm verilməsi hər bir valideyndə övladının yaxşı təhsil alacağına, onun gələcəyinin etibarlı əllərdə olduğuna əminlik yaradır.

Çıxış edənlər məzunları təbrik edib, onlara gələcək təhsillərində və həyatda uğurlar arzulayıblar.

Daha sonra məktəb məzunları müəllimlərə təşəkkürlərini bildirib, hər zaman öz uğurları ilə müəllimlərini sevindirəcəklərinə söz veriblər.

Bütün məktəblərdə "Son zəng" tədbirlərində şagirdlərin hazırladığı bir-birindən maraqlı ədəbi-bədii kompozisiyalar nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## İdmançılar və məşqçilər üçün seminar

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikada idmanın kütləviliyinə nail olmaq, bodibildinq idman növünə olan marağı daha da gücləndirmək məqsədilə məşqçi və idmançılar üçün seminar keçirilib.***



Gənclər və İdman Nazirliyinin Şərur rayon ağır atletika bölməsində keçirilən seminara muxtar respublikanın perspektivli ağır atletləri, məşqçi-müəllimləri qatılıblar. Seminarda Bakı şəhərindən dəvət olunmuş Zaqafqaziya və Avropa çempionu, Dünya birinciliyinin mükafatçısı Vüqar Verdiyev iştirak edib.

Seminarda çıxış edən Gənclər və İdman Nazirliyinin kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov, məşqçi-müəllim Şəfi Hüseynov çıxış ediblər.

Keçirilən seminarların əhəmiyyəti barədə danışan Vüqar Verdiyev məşqçi-müəllimlərə və idmançılara bu növün sirləri barədə geniş məlumat verib.

Sonda diskussiya olub, suallar cavablandırılıb.

Qeyd edək ki, seminarlar bu gün Naxçıvan Muxtar Respublika Stadionunun iclas zalında nəzəri, Turan Döyüş Klubunda isə praktik olaraq davam etdiriləcək.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Naxçıvan Müəllimlər İnstitutuna verilmiş "Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri" dövri elmi nəşrinin qeydiyyata alınması haqqında 21 dekabr 2004-cü il tarixli 1158 nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Cəlilov Şirzad Yəhya oğlunun adına olan AO/1011819 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 406